# SƏHNƏ ÜÇÜN DOĞULMUŞ İSTEDAD



Elvin Qəniyev

"Gənc virtuoz",
"Sehrli ifaçı",
"Məhir skripkaçı",
"Peşəkar kamançı"...
Elvin Qəniyev fenomeni məhz bu adlarla çağırılır...

Artıq 10 ildən çoxdur ki, həmyerlimiz – 18 yaşlı skripka ifaçısı Elvin Qəniyevin istedadına heyran qalan Türkiyə və digər xarici ölkələrin kütləvi informasiya vasitələri onun musiqi bacarığını məhz bu sözlərlə ifadə edirlər. Dünyanın ən mötəbər səhnələrində çıxış edən, ən önəmli müsabiqələrin qalibi olan soydaşımız bütün uğurlarını Azərbaycanın adına çıxır. Özünün dediyi kimi, dünyanın hansı nöqtəsində yaşayır-yaşasın, o, doğma torpağının – Azərbaycanın övladıdır.

1997-ci ildə Ankarada dünyaya gələn Elvində musiqiyə maraq heç də təsadüfən yaranmayıb. Göz açıb ailəsində peşəkar musiqiçiləri görüb. Atası Xeyrəddin bəy violonçel ifaçısı, anası Nərminə Qəniyeva piano, dayısı Toğrul Qənioğlu skripka ifaçısıdır.

Nərminə xanım deyir ki, ailədə yetərincə musiqiçi olduğundan Elvinin iqtisadçılığı və ya həkimliyi seçəcəyini düşünsələr də, istedad öz işini görüb. Onun hələ 2 yaşında ikən dayısı qızı Ceylanın skripkasını əlinə almağa cəhd etməsi ailədə hər kəsin təəccübünə səbəb olur: "Üç yaşında isə ailədə kim məşq edirdisə, oğlum əlinə aldığı qələmlə ona "dirijorluq" edirdi. Musiqi dinləməyə də hədsiz marağı vardı. "Koroğlu" operasında Nigar ariyası ifa ediləndə isə Elvin musiqinin təsirindən ağlayırdı. Beləliklə, 5 yaşında atam onunla məşqlərə başladı. Həmişə də gülərək deyirdi ki, bu çox qəribə uşaqdır. Başqaları ilə aylarla məşq edirsən, amma buna bir dəfə dərs keçmək kifayətdir ki, hər şeyi başa düşsün".

## Qazaxıstandan başlayan karyera

Elvinin peşəkar musiqi karyerasına başlamasının çox maraqlı bir tarixçəsi var. Ailə "Elvin musiqiçi olsun, yoxsa olmasın" deyə tərəddüd içində ikən baş verən bir hadisə Elvinin karyerasında dönüş nöqtəsinə çevrilir. Belə ki, 2006-cı ildə TÜRKSOY-un baş katibi Dusen Kasseinov 60 illik yubleyi münasibətilə dünyanın bütün istedadlı skripkaçılarını Qazaxıstana dəvət edir. Onların arasında balaca Elvin də varmış. Yubiley çərçivəsində böyük bir festivalla yanaşı, hətta Almatı, Karaqanda və Astanada musiqi turları keçirilir. Elə bu konsertlər zamanı, necə deyərlər, Elvin "kəşf edilir". Dünya şöhrətli skripkaçı, pedaqoq **Zaxar Bron** Elvinin ifasını çox bəyəndiyini və onunla məşğul olmaq istəyini bildirir. "Zaxar Bron məni dinlədikdən sonra şəxsən özündən dərs almağa dəvət etdi. O vaxtdan paralel olaraq babamla yanaşı, ondan da dərs almışam", – deyə Elvin bildirir.





Qara Qarayevin anım konserti. Müslüm Maqomayev Adına Azərbaycan Dövlət Filarmoniyası

Qeyd edək ki, bu pedaqoq dünyada ən istedadlı uşaqları seçir və dərs verir. Elvin bu günə qədər də onun tələbəsidi. Beləliklə, həmin festival Elvinin bütün həyatını dəyişdi. Artıq 6 yaşında orkestrlə ifa etməyə başlayan Elvin haqqında Türkiyə mətbuatı belə yazırdı "Səhnə üçün doğulmuş istedad".

> **Türkiyənin müxtəlif musiqi salonlarında çoxsaylı konsert proqramlarında çıxış edən Elvin 7 yaşında artıq Sərvər Qəniyevlə eyni səhnəni bölüşür. Eyni zamanda Viktor Pikayzenin ustad dərslərinə qatılır və Pikayze onu Vivaldinin konsertində özü ilə birlikdə iştirak etməyə çağırır.**

2005-ci ildə isə məşhur skripkaçı Cihat Aşkının Türkiyədə ən istedadlı gənc skripkaçılardan ibarət "Cihat Aşkın və onun gənc dostları" ansamblına üzv seçilir. Həmin vaxtdan bu ansamblın tərkibində Türkiyənin müxtəlif şəhərlərində çıxışlar edir və bu çıxışlar musiqisevərlər tərəfindən yüksək qiymətləndirilir. Elə həmin vaxt balaca soydaşımızın musiqi bacarığı medianın da diqqətini çəkir. Elvin haqqında "Balaca Motsart", "Skripka virtuozu" kimi başlıqlar altında məqalələrin dərcinə başlanır. İstanbuldakı konsertdən sonra tanınmış skripkaçı Ayla Erduran Elvinin parlaq gələcəyini olduğunu bildirərək onu Boğaziçi (Bosfor) Universitetinə konsert verməyə dəvət edir. 2006-cı ilin fevralında Elvin babası Sərvər Qəniyevlə Bilkənd Orkestrinin müşayiəti ilə Böyük Albert Zalında konsert verir. Skripka virtuozu Mintço Mintçev Elvini dinlədikdən sonra onun musiqi qabiliyyətinin mükəmməlliyini vurğulayır.

## Səhnədə heç vaxt həyəcanlı olmuram

Elvin, doğrudan da, öz üzərində çox çalışır. Zəhmətinin bəhrəsi özünü çox gözlətməyib. 2006-cı ilin martında Moskvanın İppolitov-İvanov İnstitutunda simli alətlər ifaçılarının "Klassik irs" beynəlxalq müsabiqəsində Azərbaycanı təmsil edərək birinci yerə layiq görülür. Münsiflər heyətində tanınmış musiqiçilərdən Sergey Kravçenko, əfsanəvi violonçel ifaçısı Nataliya Şavaskaya və digərlərinin təmsil olunduğu müsabiqədə 8 yaşlı Elvinin texniki musiqi qabiliyyəti, ustalığı yüksək qiymətləndirilir. Yeniyetmə ifaçı Dmitri Kabalevskinin konsertini və digər əsərləri məharətlə ifa edərək müxtəlif ölkələrin musiqiçilərindən ibarət münsiflər heyətinin diqqətini çəkir. Onun ifası hətta müsabiqəyə bütün dünyadan dəvət edilən tanınmış musiqiçilərin marağına səbəb olur. Gənc həmvətənimiz öz sərbəstliyi, məharəti və artistizmi ilə rəğbət qazanır. Elvin Rusiyanın məşhur skripkaçısı Vladimir Spivakov tərəfindən Moskvada təhsil almaq üçün təqaüdə də təqdim edilir. Beləliklə, balaca istedada konsert verdiyi bütün ölkələrdən – İtaliya, Britaniya, Rusiya və sairdən çoxlu dəvətlər gəlir.

Hazırda məşhur skripka müəllimi Zaxar Brondan dərs alır. Zaxar Bron Almaniya, İspaniya və İsveçrə kimi ölkələrin konservatoriyalarında təhsil verir. Sənətçi ondan dərs almaq istəyən minlərlə tələbədən ən yaxşısını seçir.



İsveçrənin Sürix şəhərindəki "Tonhalle" konsert salonu

**2006-cı ildə dahi bəstəkar V.A.Motsartın 250 illiyinə həsr olunmuş festivalda Elvin iki skripka musiqisi ifa edir. Həmin vaxtdan o öz yaş qrupuna uyğun müsabiqələrə qatılır. "Ən böyük arzum Rusiyada keçiriləcək "Çaykovski müsabiqəsi" və İtaliyada reallaşan "Paqanini müsabiqəsi"ndə iştirak edib uğur qazanmaqdır", – söyləyir.**

Səhnəyə çıxarkən həyəcan məsələsinə gəlincə, gənc istedad deyir: "Gün ərzində ən azı 4 saat məşq edirəm. Səhnədə heç vaxt həyəcanlı olmuram. Çünki babam həmişə bir musiqini mənə öyrədəndə hansısa yeri xoşlamırdısa, davamlı şəkildə 100 dəfələrlə təkrar etdirirdi. Ona görə publika önündə özümə əminəm. Bir sözlə, səhnədə hər zaman çox rahatam".

E.Qəniyev 2006-cı ildə Moskvada keçirilən "Klassik irs" beynəlxalq müsabiqəsinin qalibi olub, 2007-ci ildə skripkaçılar arasında Gülden Turalı adına müsabiqədə birincilik və türk bəstəkarı əsərinin ən yaxşı ifasına görə xüsusi mükafat qazanıb.

Elvinin Azərbaycanda, doğma Bakıda ilk solo konserti professor Nərgiz Paşayevanın dəstəyi ilə 2007-ci ildə "ÜNS" Yaradıcılıq Səhnəsində baş tutub. Bu hadisədən cəmi 1 il sonra 2008-ci ildə Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin sərəncamı ilə Elvin Qəniyevin adı Azərbaycanın gənc istedadlarının "Qızıl kitabı"na salınıb və o, Prezident təqaüdünə layiq görülüb.

Elvin Qəniyev həmçinin Polşada gənc skripkaçıların K.Lipinski və Q.Venyavski adına XI beynəlxalq müsabiqəsinin (2009), İspaniyada keçirilən "Madrid gecələri" II beynəlxalq müsabiqə-festivalın, İsveçrədə gənc musiqiçilərin P.Çaykovski adına VII beynəlxalq müsabiqəsinin (2012), D.Oystrax adına Moskva beynəlxalq müsabiqəsinin (2013) laureatı olub. 2010-cu ildə isə Roma papası Elvini ordenlə təltif edib.

O, Azərbaycan, Rusiya, Fransa, Almaniya, Yunanıstan, Polşa, İsveçrə, Belarus və digər ölkələrdə keçirilən bir sıra nüfuzlu beynəlxalq festivalların iştirakçısıdır. Avstriya, Fransa, İsveçrə, Azərbaycan, Rusiya, İspaniya, Gürcüstan, Albaniya, Qazaxıstan, Böyük Britaniya, Belçika, Çexiya, Norveç, Belarus, Almaniya, İtaliya, Misir və Amsterdamda solo konsertlər verib.

## Azərbaycanda keçirilən bütün musiqi festivallarına qatılır

Elvinin yaradıcılığı Heydər Əliyev Fondu, Mədəniyyət və Turizm Nazirliyi tərəfindən də dəstəklənir. İstedadlı musiqiçinin uğurlarını dəyərləndirən ölkə başçısı İlham Əliyev 2016-cı il "Gənclər üçün Prezident mükafatlarının verilməsi haqqında" sərəncamına əsasən, onu da mükafatlandırıb. Qeyd edim ki, bu mükafat mədəniyyət, elm, təhsil və ictimai fəaliyyət sahələrində xüsusi fərqlənən gənclərə verilir. Gənc musiqiçi Azərbaycanda keçirilən bütün musiqi festivallarına qatılır. V Qəbələ Beynəlxalq Musiqi Festivalında dünya şöhrətli sənətkarlarla eyni səhnəni bölüşüb və bu hadisəni belə xatırlayır: **"Səhnədə ABŞ və Rusiyanın dünya şöhrətli məşhur violonçel ifaçısı, "Yeni Rusiya" Dövlət Simfonik Orkestrinin dirijoru Dmitri Yablonski ilə çıxış etdiyimə görə çox xoşbəxtəm. Səhnəyə çıxdığım andan tamaşaçı alqışları ilə əhatə olundum. Bu, musiqiçi üçün vacib bir hissdir"**. Ötən il Heydər Əliyev Mərkəzində klassik musiqi gecəsində gənc virtuoz Niyazi adına simfonik orkestrin müşayiəti ilə tamaşaçılara görkəmli rus bəstəkarı Pyotr Çaykovskinin skripka üçün konsertini təqdim edib. Qara Qarayevin yubileyi ilə əlaqədar keçirilən Musiqi Festivalında isə Rauf Abdullayevin drijorluq etdiyi Azərbaycan Dövlət Simfonik Orkestrinin müşaiyəti ilə solo çıxışı alqışlarla qarşılanıb.

Elvinlə söhbət etdikcə qarşında təkcə istedalı musiqiçi deyil, həm də öz xalqını, vətənini sevən bir gənc görürsən. Türkiyədə doğulub boya-başa çatmasına baxmayaraq, Azərbaycan pasportu daşıyır və hər yerdə Vətənimizin adı ilə çıxış edir. Nərminə xanım deyir ki, Elvin öz ölkəsini çox sevir və evdə ancaq Azərbaycan yeməkləri yeyir. Hər dəfə Bakıdan həm məmnun, həm də üzüntülü ayrılır.

Vətənpərvər, istedadlı gənc soydaşımız Elvin Qəniyev bu gün musiqimizin xarici ölkələrdə yüksək səviyyədə təbliğatçısıdır. Ən böyük arzusu babası, tanınmış skripka ifaçısı **Sərvər Qəniyev**in yolunu davam etdirmək və Azərbaycan skripka ifaçılığını dünya səviyyəsinə çatdırmaqdır. Lakin bu yolda onun qarşısına çıxan yeganə əngəl keyfiyyətli skripkanın olmamasıdır. Adətən, bahalı musiqi alətlərini ya dövlət, ya da fondlar alıb musiqiçiyə verir, musiqiçi də əvəzində onları təbliğ edir. Belə bir skripka olmadan Elvin, məsələn, Rusiyada keçiriləcək "Çaykovski müsabiqəsi"ndə iştirak edə bilməz. Bu tipli müsabiqələr isə 3–4 ildən bir keçirilir ki, onlarda da müəyyən yaş həddi qoyulur. Ümid edirik ki, istedadlı soydaşımızın bu problemi də tezliklə çözüləcək və əvəzində Elvin Azərbaycana yeni-yeni ürəkaçan nəticələr gətirəcək. Bu yolda gənc skripkaçıya böyük uğurlar arzulayırıq! ❖

Mehparə Sultanova



ABŞ, Nyu-York, Karnegi Holl, 2015, 3 oktyabr